# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Muxtar respublikada sosial xidmət göstərilməsi ilə əlaqədar nəqliyyat xərcləri üçün sosial işçiyə və sosial xidmətçiyə verilən pul kompensasiyasının məbləğinin təsdiq edilməsi barədə" 2013-cü il 8 fevral tarixli 20 nömrəli, "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 12 fevral tarixli 23 nömrəli, "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 12 fevral tarixli 24 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin 25 faizinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2013-cü il 19 iyul tarixli 75 nömrəli, "Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında" 2013-cü il 5 noyabr tarixli 116 nömrəli, "Naxçıvan Beynəlxalq Hava Limanına xüsusi razılıq (lisenziya) verilməsi haqqında" 2013-cü il 7 dekabr tarixli 125 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

1.1. "Muxtar respublikada sosial xidmət göstərilməsi ilə əlaqədar nəqliyyat xərcləri üçün sosial işçiyə və sosial xidmətçiyə verilən pul kompensasiyasının məbləğinin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 fevral tarixli 20 nömrəli Qərarı;

1.2. "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 fevral tarixli 23 nömrəli Qərarı;

1.3. “Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 fevral tarixli 24 nömrəli Qərarı;

1.4. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin 25 faizinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 75 nömrəli Qərarı;

1.5. “Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 116 nömrəli Qərarı;

1.6. “Naxçıvan Beynəlxalq Hava Limanına xüsusi razılıq (lisenziya) verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 7 dekabr tarixli 125 nömrəli Qərarı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 31 ” “ iyul ” 2025-ci il

№ 42